**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN ƏMƏK RESURSLARININ BEYNƏLXALQ MOBİLLİYİNİN İQTİSADİYYATA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5310.01 - Dünya iqtisadiyyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Elnurə İlqar qızı Ziyalı** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI - 2025**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Malik Məmməd oğlu Mehdiyev** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**İrşad Abdul oğlu Kərimov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Nihad Hafiz oğlu Muxtarlı** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Əsmər Qurban qızı Mənəfova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ imza | Əməkdar elm xadimi<br>iqtisad elmləri doktoru, professor<br>**Yadulla Həmdulla oğlu Həsənli** |
| Dissertasiya şurasının elmi katibi: ____________ imza | iqtisad elmləri namizədi<br>**Rəşad Aktiv oğlu Hüseynov** |
| Elmi seminarın sədri: ____________ imza | iqtisad elmlər doktoru, professor<br>**Müşfiq Yelmar oğlu Quliyev** |

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi • Azərbaycan Dövlət İqtisad Universiteti • UNEC • ÜMUMİ ŞÖBƏ

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşmanın təsiri altında xarici iqtisadi fəaliyyətin, idxal-ixrac proseslərinin, beynəlxalq texnologiya, istehsal və xidmətlərin, xarici investisiyaların hərəkətinin, transmilli şirkətlərin fəaliyyətinin genişlənməsi istehsal amillərinin beynəlxalq bazarlarının iştirakçısı olan əmək resurslarının beynəlxalq səviyyədə mobilliyini tələb edir. Həm qəbul edən, həm də ixrac edən ölkələrin iqtisadiyyatına təsirinin bir mənalı qiymətləndirilmədiyinə baxmayaraq əmək resurslarının miqrasiyası və mobilliyinin sürətlənməsi tendensiyası dünya üzrə artmaqdadır və ölkələrin əmək bazarına təsir edir. İntensiv şəkildə davam edən əmək resurslarının miqrasiyası və mobilliyi ölkələrin iqtisadi, siyasi, sosial, demoqrafik və mədəni inkişafının aparıcı amilinə çevrilir. Dünya səviyyəsində nəinki konkret ölkələr, hətta regionlar iş yerlərinin, “ağılların” əldə edilməsi üçün beynəlxalq rəqabətə qoşulmaqla bu prosesi strateji hədəfə çevirib.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) 2024-cü ildə dərc etdiyi son məlumatlara görə, 2022-ci ildə beynəlxalq əməkçi miqrantların qlobal sayı 167,7 milyon nəfərə çatıb. Bu, dünya üzrə ümumi işçi qüvvəsinin 4,7%-ni təşkil edən əhəmiyyətli rəqəmdir. Qeyd edək ki, bu əmək miqrantları dünya üzrə əmək qabiliyyətli yaşda olan (15 yaş və yuxarı) beynəlxalq miqrantların ümumi sayının təxminən 66%-ni təşkil edir[1].

Əmək resurslarının beynəlxalq mobilliyi prosesindən udan və uduzan tərəflərin olması halı ölkə səviyyəsində bu problemə daha həssas yanaşmanı tələb edir. Xarici işçi qüvvəsi ölkənin əmək qabiliyyətli əhalisinin tərkibində əhəmiyyətli çəkiyə malik olmadıqda, konkret əmək bazarına onun cəlb edilməsi ilə bağlı qərarın qəbulunda xüsusi ixtisaslı, peşəli xarici işçi qüvvəsinin cəlb edilməsində selektiv seçimin mövcudluğu iqtisadi səmərənin əldə edilməsi, əməyin məhsuldarlığının yüksəldilməsi baxımından mühüm rol oynayır. Əmək bazarının beynəlmiləlləşməsi, yeni texnoloji nailiyyətlər əsasında beynəlxalq ixtisaslaşma və kooperasiyanın inkişafı kombinə edilmiş şəkildə beynəlmiləl əmək

[1] https://www.migrationdataportal.org/themes/labour-migration-statistics

prosesinin icra edən "beynəlmiləl məcmu işçi" kateqoriyasınınn formalaşmasına səbəb olur. İşçi beynəlxalq istehsal amilləri ilə birgə beynəlxalq istehsal və xidmətə qoşulur. Nəticədə işçi qüvvəsinin beynəlxalq dəyəri və qiyməti formalaşır, təhsilə, ixtisaslaşmaya olan tələbin unifikasiyası prosesi baş verir. Əmək şərtləri və şəraitinin beynəlxalq standartları, işçi qüvvəsinin cəlbi müqavilələri təkmilləşdirilir.Yeni yanaşmalar və tələblər bir sıra normativ-hüquqi aktların qəbulunu və yenilənməsini zəruri edir.

Azərbaycanın da beynəlxalq əmək bazarının iştirakçı olması, ölkə üzrə əmək resurslarının mobilliyinə təsirsiz ötüşmür. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Məlumat Sistemi" haqqında Əsasnamə (04 iyun 2010-cu il, 276 saylı Fərman); "Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənməsi" haqqında Azərbay-can Respublikasının Qanunu (02 iyul 2013-cü il, 713-IVQ saylı); AR Nazirlər Kabinetinin "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası" Qərarları bu istiqamətdə tədbirlərin davam etdiyini göstərir.

Ölkə üzrə əmək resurslarının mobilliyi əmək resursları və potensialının kəmiyyət və keyfiyyət göstəricilərində öz əksini tapır. Dövlət idarəetməsi çərçivəsində əmək resurslarının beynəlxalq mobilliyi, beynəlxalq əmək miqrasiyasının sosial-iqtisadi nəticələrinin təhlilinə ehtiyac artır. Bu səbəbdən müasir elmin qarşısında əmək resurslarının beynəlxalq mobilliyinin ölkənin sosial-iqtisadi inkişafına təsirinin, iqtisadi səmərənin və əməyin məhsuldarlığının yüksəldilməsində iştirak payının həm kəmiyyət, həm də keyfiyyət baxımından qiymətləndirilməsini bir çağırış kimi qoyur.

Əmək miqrasiyası və əmək resurslarının beynəlxalq mobilliyinin elmi tədqiqi keçən əsrin ortalarından artmışdır. Əmək resurslarının beynəlxalq, əmək miqrasiyası və onların iqtisadi inkişafa təsiri, bu prosesin tənzimlənməsi, məşğulluğun, əmək bazarının formalaşmasının mövcud olan digər problemlərinin tədqiqi dünyanın məşhur alimləri – Adam Smit, David Rikardo, Tomas Robert Maltus, Karl Marks, A.Marşall, A.Piqu, M.İ.Tuqan-Baranovski, A.V.Vasilyeva və başqalarının, nəzəri aspektləri

C.Saymon, H.Rasmussen, P.Lindert məşğulluğun tənzimlənməsi vasitələri və alətləri C.M.Keyns, J.Harris, M.Spense, Q.Bekker, D.Minzer, T.Şulz, D.Gibbs, V.Ouken, O.Toff-ler, A.Fillips, M.Fridman, F.A.Hayek, P.M.Solou, E.D.Kinasova, O.O.Kotova və digərlərinin əsərlərində öz əksini tapmışdır. Yerli alimlərimizdən Ş.M. Muradov, İ.N.Alıyev, T.Ə.Quliyev, S.S Mehbalıyev, G.A.Əzizova, R.Ş.Muradov, E.M.Nəsibov və başqalarını qeyd etmək olar. Bu tədqiqatçıların əsərləri dissertasiyanı yazarkən müəllif tərəfindən istifadə edilmişdir. Xeyli sayda əsərin olmasına baxmayaraq, problemin təhlili indiki mərhələdə kifayət görünmür və dissertasiyanın tədqiqat mövzusunun seçimini müəyyənləşdirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının əmək resurslarının beynəlxalq mobilliyi məsələləri; predmetini isə Azərbaycanın əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Azərbaycanın əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadi göstəricilərə təsirini qiymətləndirmək, bu sahədə dövlət siyasəti və tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaqdır. Araşdırmalar zamanı əsas məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin icrası xususi nəzərdə tutulub:

– hazırkı mərhələdə əmək resurslarının beynəlxalq mobilliyinin, beynəlxalq əmək miqrasiyasının məzmununu açıqlamaq, əhatə dairəsini və istiqamətlərini göstərmək;

– əmək resurslarının beynəlxalq mobilliynin idxal və ixracatçı ölkələrin iqtisadiyyatlarına təsirini öyrənmək;

– dünyanın inkişaf etmiş ölkələrində əmək resurslarının beynəlxalq mobilliynin, xarici miqrasiya proseslərinin dövlət tənzimlənməsi mexanizmini təhlil etmək;

– əmək məhsuldarlığının artmasına təsir edən amilləri göstərməklə, beynəlxalq əmək miqrasiyasının əmək məhsuldarlığının artmasına və iqtisadi inkişafa təsirini qiymətləndirmək;

– Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliynin vəziyyətini təhlil edərək əmək miqrasiyasını tənzimləyən prioritet

tədbirləri əsaslandırmaq, milli qanunvericiliyi təkmilləşdirmək üçün bir sıra tövsiyələr vermək.

**Tədqiqat metodları.** Tədqiqatın informasiya bazasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Miqrasiya Xidmətinin, Diaspora ilə iş üzrə Dövlət Komitəsinin, Dövlət Məşğulluq Agentliyinin və digər dövlət orqanlarının materialları, internet saytları və başqa resursları əhatə edir. Tədqiqat zama-nı son ilin və bir sıra statistik məlumatların olmaması araşdırmanın aparılmasında çətinliklər yaratmışdır. Tədqiqatın metodoloji əsaslarını yerli və xarici iqtisadçı alimlərin, demoqrafların, sosioloqların tədqiqatları; beynəlxalq və ölkə səviyyəsində əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsi üzrə normativ hüquqi aktlar, beynəlxalq konvensiyalar və çoxtərəfli sazişlər təşkil edir.

Bu araşdırma bir neçə üsula əsaslanmışdır. Ölkə və xarici statistikalardan məlumatların emalına əsaslanan statistik təhlil aparılmışdır. Əvvəla, xaricdə azərbaycanlı miqrantların sayı və ölkəəmizin əmək bazarında mühacirlərin ümumi təhlili verilmişdir. İkincisi, ümumi elmi biliklərə əsaslanan müşahidə, müqayisə və sintez əsasında ölkə və xarici statistik məlumatlar arasında müqayisə aparılmış, elmi ədəbiyyat və əmək resurslarının beynəlxalq mobilliyinin, əmək məhsuldarlığının tənzimlənməsi ilə bağlı normativ aktlar təhlil edilmiş, bəzi göstəricilər sintez edilmiş, ekonometrik modellər qurulmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində baxılan əsas müddəalar aşağıdakılardan ibarətdir:

1. Əmək resurslarının beynəlxalq mobilliyinin mahiyyətinə iqtisadi kateqoriya kimi elmi-praktiki yanaşmalar və bu, yanaşmaların sistemləşdirilməsinin zəruriliyi;

2. Xarici ölkələrin təcrübəsinin təhlili və əmək resurslarının miqrasiyasılə ölkənin iqtisadi inkişafı arasındakı qarşılıqlı əlaqənin təhlili;

3. Əmək resurslarının beynəlxalq mobilliyinin statistik göstəricilər sistemi və onların formalaşma mənbələrində problemlər;

4. Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin mövcud vəziyyəti, dövlət tərəfindən həyata keçirilən miqrasiya və məşğulluq siyasətləri çərçivəsində əmək resurslarının beynəlxalq mobiliyinin tənzimlənməsinin təkmilləşdirilməsi;

5. Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin təhlili, emmiqrasiyanın ÜDM-ə təsirinin qiymətləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

– Azərbaycanda əmək resusrlarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin təhlili nəticəsində müəyyən edilmişdir ki, əmək qabiliyyətli yaşda olan emiqrasiya ilə ÜDM arasında müsbət əlaqə var;

– Azərbaycanda əmək qabiliyyətli yaşda olan miqrasiya əmək məhsuldarlığına əhəmiyyətli, əsasən də emiqrasiya immiqrasiyadan daha güclü təsir göstərir;

– Azərbaycanda miqrasiya göstəriciləri ilə iqtisadi inkişaf göstəriciləri arasında uzunmüddətli dövrdə tarazlıq vardır;

– Əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin beynəlxalq təcrübəsi öyrənilmiş və bu prosesin kortəbii şəkildə deyil, tənzimləndiyi və müxtəlif ölkələr tərəfindən fərqli şəkildə təşkil edilməsi müəyyən edilmişdir. Azərbaycan üçün əmək qanunvericiliyinin təkmilləşdirməsi ilə bağlı təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatda üzrə çıxarılan nəticələr, ümumi təklif və tövsiyələr Azərbaycan Respublikasının İqtisadiyyat və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən məşğulluq üzrə Dövlət proqramlarının, Dövlət Məşğulluq Agentliyində əmək ehtiyatları və əmək bazarı üzrə məşğulluq proqramının işlənib hazırlanmasında, eləcə də ali təhsil müəssisələrində tədris prosesində tədqiq oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiyanın əsas nəticələri və müddəaları 3 konfransda səsləndirilmiş, 10 məqalə (onlardan 2-i xaricdə, 8-i Azərbaycanda olmaqla və 5 konfrans materialı (onlardan 3-ü xaric-də, 2-i Azərbaycanda olmaqla) şəklində dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu.

**İşin həcmi və strukturu.** Dissertasiya işi giriş (10823 işarə), 3 fəsil (I fəsil - 88150 işarə, II fəsil – 48322 işarə, III fəsil – 126131 işarə), nəticə (17239 işarə) və 250 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 28 cədvəl, 5 qrafik verilmişdir. İşin ümumi həcmi ədəbiyyat siyahısı, cədvəllər, qrafiklər istisna olmaqla 280665 işarə həcmindədi.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI:

**GİRİŞ**

**I Fəsil. Əmək resurslarının beynəlxalq mobilliyinin nəzəri-metodoloji əsasları**

1.1. Əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadi kateqoriya kimi mahiyyəti

1.2. Əmək resurslarının beynəlxalq mobilliyinə dair elmi-nəzəri yanaşmalar və onların sistemləşdirilməsi

1.3. Ölkənin inkişafı üçün əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsinin təşkilati və metodoloji əsasları

**II Fəsil. Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin mövcud vəziyyətinin təhlili**

2.1. Əmək resurslarının beynəlxalq mobilliyinin statistik göstəricilər sistemi və onların formalaşma mənbələri

2.2. Azərbaycan vətəndaşlarının xaricə əmək miqrasiyasının mövcud vəziyyəti və onu formalaşdıran amillər

2.3. Xarici ölkə vətəndaşlarının Azərbaycanda işlə təmin olunmasının mövcud vəziyyəti

**III Fəsil. Beynəlxalq əmək mobilliyinin iqtisadiyyata təsiri ilə bağlı problemlərin həlli yolları**

3.1. Əmək resurslarının beynəlxalq mobilliyi üzrə xarici ölkələrin təcrübəsinin Azərbaycanın əmək resurslarının mobilliyinə tətbiqi imkanları

3.2. Əhalinin və əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi

3.3. Əmək resurslarının mobilliyinin əhalinin məşğulluğuna təsirləri ilə bağlı problemlərin həlli yolları

**Nəticə və təkliflər**

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallığı və problemin öyrənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeri, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar və tədqiqatın elmi yeniliyi qeyd edilir, işin nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası verilir.

Dissertsaiyanən I fəsli "Əmək resurslarının beynəlxalq mobilliyinin nəzəri-metodoloji əsasları" adlanır və üç paraqrafdan ibarətdir. Bu fəslin "Əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadi kateqoriya kimi mahiyyəti" paraqrafında əmək resurslarının beynəlxalq mobilli-yinin mahiyyəti açıqlanmışdır.

Əmək resursları istehsal obyektinə və subyektinə təsir göstərir. Nəzərə alsaq ki, bu yalnız əmək fəaliyyəti deyil, ilk növbədə müxtəlif maraqları, ehtiyacları və qabiliyyətləri olan insanlardır və iş - onlar üçün qazanc əldə etməklə yanaşı, həm də iş qabiliyyətini, şəxsiyyətini açıqlaması üçün zəruri imkan və şərtdir. Əmək bazarındakı dəyişikliklərin göstəricisi əməyin mobilliliyidir, yəni əmək resurslarının, iş qüvvəsinin hərəkətinin intensivliyidir. Əmək resurslarının müxtəlif istiqamətli axını, dövlətlərin və regionların əmək bazarlarını bir araya gətirən beynəlxalq əmək bazarında öz əksini tapır. Əmək resurslarının beynəlxalq mobilliyi beynəlxalq əmək bazarının mövcudluğunun bir formasıdır. Beləliklə, biz əmək resurslarının beynəlxalq mobilliyinə tərif verərək qeyd edə bilərik ki, "əmək resurslarının beynəlxalq mobilliyi - iş tapmaq üçün daimi yaşayış yerinin dəyişdirilməsi və ya əvvəlki yaşayış yerinə qayıtması nəticəsində insanların müəyyən ərazilərin (ölkələrin) hüdudlarından kənara çıxmasıdır".

Əmək resurslarının beynəlxalq mobilliyinin təbiəti, istiqaməti və miqyası dünyada baş verən iqtisadi və sosial dəyişikliklərdən birbaşa asılıdır. Ancaq əmək miqrasiyası axınları tsiklik tendensiyalardan daha çox demoqrafik və iqtisadi balanssızlıqdan irəli gəlir. Bu axınların həcmi, intensivliyi və ona qarşı mövcud olan siyasi reaksiyalar konkret ölkələrdə və regionlarda fərqli ola bilir. Hazırda əmək miqrantı qəbul edən və əmək miqrantı göndərən ölkələrə və regionlara aydın şəkildə bölünmə bəzi hallarda mümkün deyil. Bəzi ölkələrdə eyni vaxta hər iki proses müşahidə oluna bilər ki, bu da regionlararası və dövlətlərarası əmək miqrasiyası və ya əmək resurslarının mübadiləsini əks etdirir. Ümumiyyətlə, bu proses

üzrə dəyişikliklər və istiqamətlər ölkənin və regionun perspektivlərinə uyğun dərin və fərqli şəkildə sistemli təhlil tələb edir.

Dövlətin daxildə və xaricdə yaranan işsizlik problemlərin həlli yollarının axtarmasına öz iqtisadi və siyasi vəziyyətindən çıxış edərək yanaşır. Əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsi də dövlət və ya bazar tərəfindən həyata keçirilməsi mexanizminə görə dövlətlər əhəmiyyətli fərqlər əks etdirir.

Beynəlxalq əmək miqrasiyasının sosial-iqtisadi aspektlərinə üç nöqteyi-nəzərdən baxıla bilər: miqrant, gedən ölkə və gəliş ölkəsi. İmmiqrasiya və onun təsiri altında yaranan iqtisadi təsirlər işçi qüvvəsini qəbul edən dövlətin iqtisadi uğurları və ya uğursuzluqlarına mütənasib şəkildə dəyişir. Müxtəlif amillərdən asılı olaraq ölkələr həm immiqrasiya, həm də emiqrasiyada maraqlı ola bilərlər. Bir qayda olaraq, inkişaf etməkdə olan ölkələrdə demoqrafik vəziyyətin çox çətin olduğu və yaşayış səviyyələrinin nisbətən aşağı olduğu bir miqrasiya marağı var. Hər üç tərəfin maraqları üst-üstə düşə və ya bir-birinə zidd ola bilər.

I fəslin II paraqrafı "Əmək resurslarının beynəlxalq mobilliyinə dair elmi-nəzəri yanaşmalar və onların sistemləşdirilməsi" adlanır və burada əmək resurslarının beynəlxalq mobilliyinə iqtisadi kateqoriya kimi elmi-praktiki yanaşmalar araşdırılmış və bu, yanaşmaların sistemləşdirilməsi zəruriliyi müəyyən olunmuşdur.

Dünya praktikasında əmək resurslarının beynəlxalq mobilliyi proseslərinin səbəblərini, istiqamətini və nəticələrini, əmək miqrantlarının ölkədən getməsi və ya başqa ölkəyə daxil olmasını izah edən çox sayda ziddiyyətli nəzəriyyələr mövcuddur. Əsas problem "əmək resursları" və "işçi qüvvəsi", "əmək resurslarının mobilliyi" və "əmək resurslarının miqrasiyası" kimi terminlərinə fərqli yanaşmaların olması ilə bağlıdır. Müxtəlif ədəbiyyatda əmək fəaliyyəti ilə məşğul olan şəxslərin dövlətlərin hüdudlarından kənara çıxması prosesi fərqli adlanır: "beynəlxalq əmək ba-zarı", "beynəlxalq əmək birjası", "əmək resurslarının beynəlxalq hərə-kəti" və s[2]. Aydındır ki, nəzərdən keçirilmiş bütün terminoloji uyğunsuzluqlar, ilk növbədə,

[2] Давлетгильдеев, Т.Ш. К вопросу об определении понятия «внешняя трудовая миграция» в российском праве // Российский юридический журнал. – 1997. – № 4. – с. 15–16

əmək mobilliyi fenomeninin elm adamları tərəfindən müxtəlif elmi bilik sistemləri baxımından öyrənilməsindən qaynaqlanır[3]. Əlbəttə bu yanaşmalara diqqət yetirərək əmək miqrasiyası, əmək mobilliyinə dair elmi-nəzəri baxışları qeyd etmək zəruridir. Bəzi ədədbiyyatlarda “əməkçi-miqrant” anlayışına rast gəlinir. Qeyd edək ki, "əməkçi-miqrant" anlayışına beynəlxalq konvensiyalarda ya-naşma da fərqlidir. Nəzəri yanaşmaları bir araya gətirərək qeyd edə bilərik ki, əmək resurslarının beynəlxalq mobilliyi - iş tapmaq üçün daimi yaşayış yerinin dəyişdirilməsi və ya əvvəlki yaşayış yerinə qayıtması nəticəsində insanların müəyyən ərazilərin (ölkələrin) hüdudlarından kənara çıxmasıdır. Elmi ədəbiyyatda “əmək resurslarının mobilliyi” anlayışlarının müxtəlif tərifləri bizə aşağıdakı nəticələr çıxarmağa imkan verir:

- birincisi, əmək resurslarının mobilliyi çox funksiyalı, çox amilli xarakterə malikdir;
- ikincisi, əsas xüsusiyyətləri kimi hər hansı bir ərazinin (ölkə xarici və ya ölkə daxili) yenidən qurulmasında, təşkilində iştirak payı təhlil edilir,
- üçüncüsü, səbəbləri kimi köçmə məqsədi və hansı müddətə köçməsi götürülür.

Əmək resurslarının beynəlxalq mobilliyinin nəzəri yanaşmaların təhlili bu prosesin kor təbii şəkildə həyata keçdiyini deyil, tənzimləndiyini bir daha açıqladı. Lakin bu tənzimlənməsinin müxtəlif ölkələr tərəfindən fərqli şəkildə təşkil edilməsi və metodoloji əsaslarının fərqliliyi müşahidə edilir. Bu səbəbdən əmək resurslarının beynəlxalq mo-billiyinin təşkilati və metodoloji aspektlərinə daha geniş baxılmasına ehtiyac yaranır.

I fəslin III paraqrafı “Ölkənin inkişafı üçün əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsinin təşkilati və metodoloji əsasları” adlanır. Ümumilikdə, tənzimləmə obyekti kimi miqrantların əmək potensialı və miqrasiyaya qarşı təhlükələrin qiymətləndirilməsi götürülür. Miqrantların əmək potensialının qiymətləndirilməsi aşağıdakı istiqamətlərdə aparılır:

[3] Юрченко В. В. «Трудовая мобильность» и «трудовая миграция» в различных системах теоретических знаний, Социальная экономика, 2004, №3

1) əcnəbi işçi qüvvəsi (peşə ixtisas qrupları üzrə qruplaşdırmaqla) vasitəsilə əmək resurslarının çatışmazlığını aradan qaldırmaq;

2) yüksək və orta ixtisaslı əcnəbi mütəxəssislərin sayının aşağı ixtisaslı və ixtisaslı olmayan əcnəbi işçilərin sayına nisbəti;

3) miqrantların təhsil səviyyəsi.

Miqrasiyaya olan təhdidlərin səviyyəsinin qiymətləndirilməsi aşağıdakı istiqamətlər üzrə aparılır:

1) əmək bazarı;

2) iqtisadi vəziyyət;

3) qanunun aliliyi və ictimai təhlükəsizlik;

4) əhalinin etnik tarazlığı;

5) sanitar və epidemioloji rifah.

Əmək miqrasiyasının donor və qəbul edən ölkələrin iqtisadi inkişafına təsirini qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə edilir[4]:

1. Emiqrasiyanın donor ölkənin daxili bazarına təsiri göstəriciləri;

2. Əmək emiqrasiyasının donor ölkənin insan kapitalının inkişaf səviyyəsinə təsiri göstəriciləri;

3. Əmək emiqrantlarının vətənlərinə pul köçürmələrinin donor ölkələrin iqtisadi inkişafına təsiri üzrə göstəriciləri;

4. Əmək emiqrasiyasının donor ölkənin büdcəsinin xərc və gəlirlərinə təsiri üzrə göstəriciləri;

5. Əmək immiqrantlarının vətənlərinə pul köçürmələrinin qəbul edən ölkənin büdcə sisteminə təsiri üzrə göstəricilər;

6. Miqrant işçilər tərəfindən ödənilən məcburi büdcə ödənişlərinin təsirinin nəticələrini qiymətləndirmək üçün göstəricilər.

---

[4] Алешковский И.А., Гребенюк А. А., Максимова А. С. Методологические подходы к оценке влияния внешней трудовой миграции на финансово-бюджетную сферу принимающих стран. Финансы: теория и практика. 2018;22(6):69-81. DOI: 10.26794/2587-5671-2018-22-6-69-81; Гребенюк, А.А. Методологические подходы к разработке системы показателей воздействия трудовой миграции на экономику государств, экспортирующих рабочую силу // Экономика труда. — 2017.— Том 4. — № 2. – С. 59–72. doi: 10.18334/et.4.2.38185

Bütün bu qeyd edilənlərlə yanaşı əmək resurslarının donor və qəbul edən ölkələrdə əmək məhsuldarlığının artmasına təsir edən amillərin nəzərə alınması və onların qiymətləndirilməsi də vacibdir.

Dissertsaiyanın II fəsli "Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin mövcud vəziyyətinin təhlili" adlanır və üç yarım-fəsildən ibarətdir. Burada I yarımfəsil "Əmək resurslarının beynəlxalq mobilliyinin statistik göstəricilər sistemi və onların formalaşma mənbələri" adlanmaqla bu istiqamətdə problemləri araşdırır.

Əmək resurslarının beynəlxalq mobilliyini digər miqrasiya növlərindən (məsələn, turizmdən) ayırmaq üçün sorğu anketlərinə son vaxtlar xaricə iş məqsədləri üçün gedənlərə dair suallar, məsələn, xaricdə olma səbəbi, müddəti və ödəniş formaları ilə bağlı məhdud sayda suallar əlavə edilir. Təcrübəsi olan ölkələr və ya bölgələr üçün bu sorğulara əlavə məlumatların alınması məqsədi ilə müvafiq sualların əlavə edilməsi də müşahidə edilir. Statistik məlumatları tərtib edən zaman sorğu suallarına cavab olaraq alınan məlumatların ikiqat uçotu problemlərinə, həmçinin şərh və ekstrapolyasiyaya diqqət yetirılməlidir. Həll olaraq, ikiqat uçotun olmaması üçün məlumatların işlənməsi alqoritmləri hazırlanmalıdır. Qəbul edən ölkələr üçün şirkətdaxili işçi köçürməsinin (rotasiyasının) bir hissəsi olaraq, göndərilən işçilər və özünüməşğulluq əsasında işləyən miqrantlar haqqında məlumat toplamaq zəruridir. Bəzi ölkələr məlumat toplamağı asanlaşdırmaq üçün "tək səyahət edən" insanlar və "şirkətlərin adından səyahət edən" insanlar üçün fərqli profillərdən istifadə edir. Bu metod yaxşı təcrübə kimi istifadə edilə bilər. Bir çox hallarda xaricə gedən insanların axınlarını ölçərkən, bir şəxsin rezident və ya qeyri-rezident olub olmadığını müəyyən etmək mümkün olmur. Birinci vəzifə sərhədi keçənlər arasında qeyri-rezidentlərin müəyyənləşdirilməsidir. Kollektiv yaşayış yerlərində bu cür şəxslərin izlənməsində, bir qayda olaraq, iki əsas məhdudiyyət var. Birincisi, hamı kollektiv yaşayış yerlərində dayanmır. İkinci məhdudiyyət, yaşayış yerlərində araşdırmalar aparıldıqda, səyahət edənlərin hələ də səfəri başa vurmamaları ilə əlaqədardır; onların ümumi xərcləri səfərin bütün müddəti ərzində bərabər paylanmadığı üçün onların orta gündəlik xərcləri gözlənilən qalma müddətinə ekstrapolyasiya edilə

bilməz. Nəhayət, tələbələri miqrant işçi qüvvəsinin bir hissəsi kimi təsnif etmək və onların part-time əsasda istifadəsini müəyyən etməkdə çətinliklər var. Azərbaycanda daimi yaşamaq üçün ölkəyə gəlməyə icazə almış şəxslər "gələn", ölkədən getmək üçün icazə almış şəxslər "gedən" hesab olunur. Diqqət çəkən əlamətlərdən biri kimi əmək ehtiyatlarının beynəlxalq hərəkət göstəricisidir - iş yerinin dəyişdirilməsi, yəni xaricə rotasiya. Bununla belə, statistik məlumatları nəzərdən keçirdərkən gördük ki, əmək ehtiyyatlarının müəssisə səviyyəsində autsorsinqi ilə əlaqədar ixtisarların uçotu aparılmır. İşdən çıxarılma səbəbi kimi yalnız könüllü ixtisarlar və ixtisarlar göstərilir. Həmçinin bu sahədə təhlili çətinləşdirən amillərdən biri də bəzi statistik məlumatların ictimai istifadəyə verilməməsi və ya ilkin məlumatların ümumiyyətlə olmamasıdır.

II fəslin II yarımfəsili olan "Azərbaycan vətəndaşlarının xaricə əmək miqrasiyasının mövcud vəziyyəti və onu formalaşdıran amillər"in araşdırlmasına həsr edilir. Təhlildən görünür ki, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı 1990-2023-ci illər üzrə (33 il ərzində) 463,7 min nəfər etmişdir. Ən yüksək axın 1990-cı ilə dəlalət edir və onda ölkədən gedənlər cəmi gedənlərin 30,1% təşkil etmişdir. Bu müstəqilliyin ilk illərində təkcə ölkədəki iqtisadi böhranla deyil, həm də ölkədə mövcud olan siyasi-hərbi qeyri-sabirliklə bağlı idi. Ən aşağı göstərici 2012-ci ilə düşür ki, bu da 200 nəfərin ölkədən getməsini göstərir. Ümumiyyətlə 1990-cı ildə 2012-ci ilə qədər ölkədən getmədə azalma müşahidə olunur. 2014-cü ildən ölkədən daimi yaşamaq üçün xaricə getmədə tədricən artımın olması dünyadakı maliyyə böhranın ölkəmizə təsiri və digər sosial-iqtisadi məsələlərlə bağlı olmasından irəli gəlir. 2020-2021-ci illər isə pandemiya və postpandemiya dövrləri olduğu üçün sərhədlərin bağlı olması və digər bu kimi mühafizəkar tədbirlər səbəbindən ölkədən gedənlərin sayında daha da azalma müşahidə edilmişdir. Amma 2023-cü ildə ölkədən gedənlərin sayında 2022-ci ilə nisbətən təqribən 2 dəfə artım olsa da, miqrasiya artımında 0,6 bənd azalma müşahidə edilmişdir. 2009-2023-cü illərin təhlili bir mənalı olaraq gedənlər arasında cavanların və orta yaş qrupunun üstünlük təşkil etdiyini göstərir. Ölkədən gedənlər arasında qadınlar kişilərə nisbətən 1,8 dəfə çox olmuşdur. Həmçinin mühacirət istiqamətlərinin dəyişdirilməsi baş verib. 1990-cı ildə əsas istiqamət

Rusiya idi (77 452 nəfər), bütün gedənlərin 56,2%-i. Artıq 2023-cü ildə diversifikasiya baş vermişdir. MDB-dən kənar ölkələrə miqrasiyanın payı əhəmiyyətli də-rəcədə artdı (1534 nəfər, bütün gedənlərin 61,8%-i). Türkiyəyə mühacirətdə artım xüsusilə nəzərə çarpır və 1990-cı ildə 2 nəfərdən 2023-cü ildə 486 nəfərə (artım 243 dəfə) çatıb. Qeyd edək ki, 2021-ci ildən 2023-cü ilə qədər miqrasiyanın ümumi həcmi 4,4 dəfə artıb (570 nəfərdən 2483 nəfərə). Azərbaycana gələnlərin təhlili göstərir ki, im-miqrasiya artımı da var. 2021-ci ildə 2397 nəfərdən 2023-cü ildə 3638 nəfərə (artım 51,8%) qədər artım olub. 2023-cü ildə ən çox dələnlər Rusiya (1235 nəfər, bütün gələnlərin 34%-i) və Gürcüstandan (1253 nəfər, bütün gələnlərin 34,4%-i) olub. 2023-cü ildə müsbət miqrasiya saldosu (+1155 nəfər, yəni - 3638 nəfər gəlib, 2483 nəfər gedib). 1990-2023-cü illər ərzində hər iki istiqamətdə (Azərbaycandan gedən və bura gələnlərin) yekun göstəricilərində azalma var.

Əmək bazarında axının əsas səbəbi əmək haqqının səviyyəsi ilə bağlıdır. 2010-2023-cü illər üzrə ən yüksək orta aylıq nominal əmək haqqı artımı Moldova (2,8 dəfə), Qırğızastanda (2,4 dəfə), Tacikistan-da (2,3 dəfə), Ermənistanda (2,5 dəfə) olmuşdur. Azərbaycan bu reytinqdə 11 ölkə içərisində 7-ci yerdədir. Təhlil göstərir ki, 2000-ci illə müqayisədə 2023-cü ildə ölkə üzrə işsizlərin sayında 1,8 dəfə azalma baş verib. Lakin 2023-cü ildə 11 milyona yaxın əhalisi olan bir ölkədə 286,4 min nəfər işsizin olması bu işçiz ordusunun xaricə axını ilə nəticələnə bilir. Bu baxımdan ölkədə mövcud olan işsizlik səviyyəsi 4-5% keçməsə də əmək resurslarının miqrasiya etməsinə əsas səbəblərdən ola bilir.

II fəslin II yarımfəsili olan “Xarici ölkə vətəndaşlarının Azərbaycanda işlə təmin olunmasının mövcud vəziyyəti”nin araşdırlmasına həsr edilir. Ölkəyə daimi yaşamaq üçün gələnlərin sayı 1990-2023-cü illər üzrə (33 il ərzində) 302,6 min nəfər etmişdir. Gələnlərin arasında ən yüksək göstəricisi olan yaş qrupu 30-49 yaş qrupudur ki, bu da biznes və peşəkar miqrasiya növünə daha çox uyğun gələn yaş qrupudur. Haqqı ödənilən əmək fəaliyyəti ilə icazəsi olan məşğul əcnəbi və vətəndaşlığı olmayanların 2017-2023-cü illər üzrə 11,3%-ni qadınlar təşkil etmişdir. 18-64 yaş aralığında olan isə 98,6% olub.

**Cədvəl 1..**
**Haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələri olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cins və yaş qrupu üzrə bölgüsü, nəfər**

| **Yaş qrup ları** | **Cəmi, nəfər** | | | | | **onlardan qadınlar** | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2021 | 2022 | 2023 | 2017 | 2018 | 2021 | 2022 | 2023 |
| Cəmi | 6602 | 5048 | 7698 | 7926 | 9438 | 655 | 701 | 797 | 870 | 1117 |
| 18-29 | 902 | 619 | 1111 | 1221 | 1595 | 143 | 164 | 159 | 183 | 261 |
| 30-59 | 5293 | 4103 | 6250 | 6355 | 7433 | 487 | 515 | 618 | 660 | 822 |
| 60-64 | 292 | 225 | 254 | 262 | 300 | 18 | 15 | 16 | 17 | 25 |
| 65+ | 115 | 101 | 83 | 88 | 110 | 7 | 7 | 4 | 10 | 9 |

Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ (02.02.2025 tarixə olan məlumat)

2016-2023-cü illər üzrə haqqı ödənilən əmək fəaliyyəti ilə icazəsi olan məşğul əcnəbi və vətəndaşlığı olmayanların əsas hissəsi tikinti (40,8%), mədənçıxarma (22,9%), emal sənayesi (8%), təsil (4,7%), turistlərin yerləşdirilməsi və ictimai iaişə (4,6%), ticarət, nəqliyyat vasitələrinin təmiri (3,3%), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (2,5%), informasiya və rabitə (2,4%) və kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (2%) təşkil edib. Postpandemiya dövrü olan 2021-2023-cü ildə isə əsas artım əsasən tikinti sektorunda olmuşdur. Təhlil göstərir ki, 2010-2025-ci illər ərzində təsdiq edilmiş kvota-ların sayı 1,6 dəfə (10700-dən 6500-ə qədər) azaldılmışdır. Bu da müsbət göstəricidir, çünki daxili əmək bazarı artıq zəruri olan mütəxəssislərə malik olmağa başlayır. Hazırda kvotalar aqronom, inşaat, kim-ya, mədən və s. üzrə mühəndis, İT mütəxəssisi (proqramçı, veb dizay-ner, İT təhlükəsizlik və s.), müxtəlif qurğu və avadanlıqlar üzrə operator vəzifələri üçün müəyyən edilmişdir.

Tədqiqatın III fəsli "Beynəlxalq əmək mobilliyinin iqtisadiyyata təsiri ilə bağlı problemlərin həlli yolları"na həsr edilir və 3 yarımfəsildən ibarətdir. Burada I yarımfəsil "Əmək resurslarının beynəlxalq mobilliyi üzrə xarici ölkələrin təcrübəsinin Azərbaycanın əmək resurslarının mobilliyinə tətbiqi imkanları"na həsr edilir. Bir çox hallarda əhalinin

köçməsinə təsir göstərən millətlərarası münasibətlərin kəskinləşməsi, etnik və dini qarşıdurmalar, müharibə və təbii fəlakətlər nəticəsində əmək resusrlarının hərəkəti hüquqi qaydalar çərçivəsində baş vermir və daha çox obyektiv xarakter daşıyır. Əksinə yüksək ixtisaslı işçi qüvvəsinin hərəkəti ilə bağlı miqrasiya modeli bundan tamam fərqli olaraq rəqabət mübarizəsinin nəticəsi kimi təzahür edir və miqrasiyanın əsas səbəbi kimi qəbul edən ölkənin miqrantlara verdiyi daha böyük imkanlardır. Bəzi tədqiqatlar[5] miqrasiya və immiq-rantların iqtisadi və mədəni təhlükə olduğunu göstərir. Rusiya, Almaniya, Böyük Britaniya və İsraildə aparılan tədqiqatlar rifahla miqrasiyanın nəticələrinin neqativ qəbul edilməsi arasında müsbət əlaqənin olduğunu göstərdi. Hazırda beynəlxalq əmək miqrasiyası yüksək ixtisaslı mütəxəssislərin ABŞ, Kanada və Qərbi Avropa ölkələrinə doğru hərəkətinin artmasını göstərir.

Azərbaycan üçün beynəlxalq təcrübənin tətbiqi istiqamətləri üzrə müxtəlif təkliflər irəli sürülə bilər. İmmiqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində Avropa Birliyinin yanaşmalarından istifadə edərək, Amsterdam və Lissabon sazişlərinin əsas prinsiplərini nəzərə alan, gələnlərin və qaçqınların hüquq və öhdəliklərini tarazlaşdıran hüquqi çərçivə formalaşdırıla bilər.

İnteqrasiya modellərinin adaptasiyası üzrə İsveç və digər Skandinaviya ölkələrinin siyasətlərindən nümunə götürərək, xarici vətəndaşların cəmiyyətə daxil olmasını təmin edən proqramlar həyata keçirilməlidir.

İmmiqrasiya və əmək bazarının əlaqələndirilməsi üçün Birləşmiş Krallığın təcrübəsindən istifadə edərək, bal sisteminə əsaslanan qiymətləndirmə mexanizmi tətbiq edilə bilər.

Regional və beynəlxalq əməkdaşlıq sahəsində İspaniya və İtaliyanın təcrübələrindən istifadə edərək, Azərbaycan ikitərəfli və çoxtərəfli əməkdaşlıq proqramları qurmalıdır. Təhsil və peşə hazırlığı proq-ramlarının inkişafı üzrə xarici vətəndaşların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq məqsədilə təhsil və peşə hazırlığı kursları təşkil edilməlidir.

---

[5] Рябиченко Т.А., Лебедева Н.М. Отношение к иммиграции и субъективное благополучие принимающего населения // Общественные науки и современность. 2014. № 2. С. 34–43

III fəslin “Əhalinin və əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi” yarımfəslində qiymətləndirilmə aparmaq üçün bir neçə istiqamətdə araşdırmanın aparılmasını zəruri hesab edirik. Əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin ekonometrik təhlili ölkənin iqtisadi inkişafını xarakterizə edən ÜDM, əmək məhsuldarlığı və məşğulluq kimi mühüm makro göstəricilərin əmək resurslarının beynəlxalq mobilliyini xarakterizə edən göstəricidən empirik xətti asılılığına əsaslanır. Ekonometrik qiymətləndirmə nəticəsində iki mühüm model əldə edilmişdir:

**Model 1:** Əmək qabiliyyətli yaşda olan əhalinin ölkəyə gəlməsi və getməsinin Real ÜDM-ə təsiri modeli:

**D(eRGDP,2) = 1836,69*D(YGED_EQE,2) - 152,63*D(YGEL_EQE,2) - 195,50**

1-ci modelin əmsalları əsasında göstəricilərin faktiki səviyyələri arasında deyil, onların 2-ci tərtib fərqləri arasında əlaqəni ifadə edir və ondan istifadə edərək ÜDM-ə təsiri belə qiymətləndirilə bilər: D(YGED_EQE,2) göstəricisi bir vahid dəyişdikdə D(RGDP,2) göstəricisi 1836,69 vahid artır. D(YGEL_EQE,2) göstəricisi bir vahid dəyişdikdə isə D(RGDP,2) göstəricisi 152,63 vahid azalır.

**Model 2:** Əmək məhsuldarlığına təsir

**D(E_MEHSULDARLIQ,2) = 0,40*D(YGED_EQE,2) - 0,09*D(YGEL_EQE,2) - 0,042**

2-ci modelin əmsalları göstəricilərin faktiki səviyyələri arasında deyil, onların 2-ci tərtib fərqləri arasında əlaqəni ifadə edir və ondan istifadə edərək mobilliyin əmək məhsuldarlığına təsiri belə təfsir edilə bilər: D(YGED_EQE,2) göstəricisi bir vahid dəyişdikdə D(E_MEHSULDARLIQ,2) göstəricisi 0,40 vahid artır. D(YGEL_EQE,2) göstəricisi bir vahid dəyişdikdə isə D(E_MEHSULDARLIQ,2) göstəricisi 0,09 vahid azalır.

Qiymətləndirmə nəticəsinsə alınan ən yaxşı model 1-ci model olmuşdur. Model göstəricilərin dinamika sıralarının 2-ci tərtib fərqlərinin artımı kimi məlumatlardan istifadə edilərək qurulsa da belə

yanaşma yalançı reqressiya əlaqələrindən yaxa qurtarmağa imkan verir. Ekonometrik qiymətləndirmələrin nəticələrinə görə ölkədən gedən əmək qabiliyyətli əhalinin sayının 2-ci tərtib fərqindəki dəyişikliklərdə bir vahid artım ÜDM-i 1836,69 vahid artırır. Bu təsirin ötürülmə mexanizminin "ölkədən gedən əməkqabiliyyətli əhali işsizlik-inflyasiya-ÜDM" xətti ilə baş verməsini daha ağlabatan hesab etmək olar.

**Model 3.** Əmək qabiliyyətli yaşda olan əmək resurslarının mobilliyinin məğulluğa təsirini qimətləndirmə nəticəsində aşağıdakı çoxluq reqressiya tənliyi alınmışdır:

$$Y=8,37 + 0,07X_1 - 0,02 X_2 \qquad (1)$$

Burada: Y - LN Məşğul əhalinin sayının loqorifmi; $X_1$ - əmək qabiliyyətli yaşda olan ölkəyə daimi yaşamaq üçün gələnlərin sayının natiral loqorifmi; $X_2$ - əmək qabiliyyətli yaşda ölkədən daimi yaşamaq üçün gedənlər sayının natural loqorifmidir.

Modeldə həm sabit, həm də meyillilik əmsallara diqqət yetirdikdə hər iki izahedici dəyişənin statistik əhəmiyyətli olmadığı görünür. Modelin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində hər hansı korrelyasiya əlaqəsi yoxdur. Modelin təfsiri göstərir ki, ölkəmizdə əmək resurslarının mobilliyinin əhalinin məşğulluğuna əhəmiyyətli təsiri statistik əhəmiyyətli deyildir.

III fəslin III yarımfəsli "Əmək resurslarının mobilliyinin əhalinin məşğulluğuna təsirləri ilə bağlı problemlərin həlli yolları"na həsr edilir.

Beynəlxalq təcrübəyə əsaslanaraq, əcnəbilərin məsafədən işləməsini tənzimləmək üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsinə aşağıdakı dəyişikliklər edilməsi təklif edilir:

1. 13-cü maddəyə "Əsas anlayışlar"a aşağıdakı anlayışların əlavə edilməsi:

- "Məsafədən iş"
- "Məsafədən əcnəbi işçi"
- "Rəqəmsal iş yeri"

2. Əmək müqaviləsinin məzmunu ilə bağlı Məcəllənin 43-cü maddəsinin 2-ci bəndinə dəyişiklik edilməsi ilə bağlı tövsiyələr:

– “Məsafədən iş” əmək müqavilələrinə ayrıca bölmə kimi əlavə edilməlidir;

3. Məcəllənin 44-cü maddəsinin 1 bəndində “Elektron əmək müqaviləsi”nin bağlanmasının xüsusiyyətləri müəyyənləşdirilməlidir.

4. Məcəllənin 55-ci və 89-102-ci maddələrində “İş vaxtı” ilə bağlı aşağıdakıların əlavə edilməsi:

– Məsafədən işləyən işçilərin iş vaxtının uçotu;

– İş vaxtı rejiminin məsafədən işçinin yaşadığı yerin (ölkənin) iş vaxtı zonalarına uyğunlaşdırılması hüququ;

– Əcnəbi və ya vətəndaşlığı olmayan işçi üçün çevik iş qrafikinin yaradılması hüququ.

5. “Əmək haqqı” 174-cü maddəsinə aşağıdakı əlavələrin edilməsi tövsiyə edilir:

– Məsafədən işləyən əcnəbi və ya vətəndaşlığı olmayan işçi üçün əmək haqqının xarici valyutada ödənilməsi qaydası;

– Məsafədən işləyən əcnəbi və ya vətəndaşlığı olmayan işçilərin vergiyə cəlb edilməsinin xüsusiyyətləri;

– Məsafədən iş yerinin təşkili xərcləri üçün kompensasiyanın ödənilməsi şərtləri;

6. Əməyin mühafizəsi ilə bağlı bəndlərə açağıdakıların əlavə edilməsi tövsiyyə edilir:

– Məsafədən iş yerinin təşkili üçün tələblər

– Məsafədən işin təhlükəsizliyi üçün işəgötürənin məsuliyyəti

– Məsafədən iş şəraitinin monitorinqi qaydası

7. Yeni maddə kimi "Məsafədən əcnəbi və ya vətəndaşlığı olmayan işçilərin işinin tənzimlənməsi xüsusiyyətləri" daxil edilməsi:

– İş icazələrinin alınması üçün sadələşdirilmiş prosedur

– Elektron sənəd dövriyyəsi qaydaları

– Sosial sığortanın xüsusiyyətləri

8. Maddi məsuliyyət haqqında maddəyə dəyişikliklər:

– Təqdim olunan avadanlığın təhlükəsizliyinə görə məsuliyyət

– Məxfi məlumatların qorunması

– Kibertəhlükəsizliyin təmini

9. Əmək mübahisələri bölməsinə əlavələr:

– Məsafədən işləyən əcnəbi və ya vətəndaşlığı olmayan işçilərlə mübahisələrin həlli qaydası

– Məsafədən işləyən əcnəbi və ya vətəndaşlığı olmayan işçilər üçün onlayn mediasiya imkanı

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strateqiyası"nınTədbirlər planının 2.1.2. Fəaliyyət istiqaməti: Özəl sektorda məşğulluğun inkişafının stimullaşdırılması bölməsinin 3-cü bəndi olan "Əmək miqrasiyasında yüksəkixtisaslı əcnəbi mütəxəssislərə üstünlük verilməsinin təmin edilməsi məqsədilə mexanizmin yaradılması" üzrə aşağıdakı mexanizmləri təklif edirik:

1. Əcnəbi işçilərin əmək bazarına girişinin tənzimlənməsi mexanizmləri kimi:

– Miqrantların ixtisaslarının qiymətləndirilməsi üçün bal sisteminin tətbiqi;

– Yüksək ixtisaslı mütəxəssislər üçün ekspress iş imkanı dəhlizlərinin yaradılması;

– İqtisadiyyatın prioritet sahələri üzrə yüksək ixtisaslı mütəxəssislərin işə cəlbi (ənənvi və məsafədən) prosedurların sadələşdirilməsi;

– Mövsümi işçilər üçün xüsusi proqramların hazırlanması

2. Əcnəbi işçilərin əmək bazarına inteqrasiya olunması mexanizmləri kimi:

– Dil hazırlığı, sosial və mədəni uyğunlaşma proqramları;

– Peşəkar yenidən hazırlıq və uyğunlaşma;

– Mənzil tapmaqda köməklik.

3. Vətənə qayıdış üzrə stimullaşdırma mexanizmləri kimi:

– Reinteqrasiya proqramları;

– Mütəxəssislərin geri qayıtmasının stimullaşdırılması;

– Sahibkarlıq təşəbbüslərinə dəstək;

– Məşğulluqda köməklik üçün maliyyə əldə edilməsi və təlimə cəlb edilmə imkanlarının yaradılmnası.

4. Əcnəbi işçilərin əmək bazarında fəaliyyətinin monitorinq və qiymətləndirilməsi mexanizmləri kimi:

– Performans Göstərici Sisteminin tətbiqi.

## Tədqiqatda əldə edilən nəticələr

1. Əmək resurslarının beynəlxalq mobilliyinə tərif verərək qeyd edə bilərik ki, əmək resurslarının beynəlxalq mobilliyi - əmək resurslarının hərəkətinin intensivliyidir, yəni iş tapmaq üçün daimi yaşayış yerinin dəyişdirilməsi və ya əvvəlki yaşayış yerinə qayıtması nəticəsində insanların müəyyən ərazilərdə hərəkətinin intensivliyidir.

Əmək resurslarının beynəlxalq mobilliyinin təbiəti, istiqaməti və miqyası dünyada baş verən iqtisadi və sosial dəyişikliklərdən birbaşa asılıdır. Hazırda əmək miqrantı qəbul edən və əmək miqrantı göndərən ölkələrə və regionlara aydın şəkildə bölünmə bəzi hallarda mümkün deyil. Bəzi ölkələrdə eyni vaxta hər iki proses müşahidə oluna bilər.

2. Əmək resurslarının miqrasiyası iki qrup amillərin təsiri altında baş verir:

1) birinci qrupa iqtisadi əsası olmayan, məsələn, siyasi və hüquqi, dini, etnik, ailə tərkibi və vəziyyəti amilləri daxildir. Son onilliklərdə əmək resurslarının miqrasi-yasına ekoloji, təhsil, mədəni, psixoloji amillər ciddi təsir göstərməyə başlamışdır;

2) ikinci qrupa iqtisadi amillər aid edilir.

3. Qeyri-qanuni miqrant ilə illeqal anlayışları çox vaxt eyniləşdirilir. Halbuki, qeyri-qanuni miqrantların ölkədə olması həmişə qanunsuzdursa, illeqal miqrantların ölkə ərazisində olması mütləq surətdə qeyri-qanuni deyil. Nəticə etibarı ilə qeyri-qanuni miqrant ölkədə qeyri-qanuni yaşayan və eyni zamanda əmək fəaliyyəti ilə məşğul olan bir işçi sayılır, yəni qeyri-qanuni miqrantın ölkədə olması həmişə qanunsuzdur, lakin illeqal miqrantın ölkədə olması heç də həmişə qanunsuz hesab olmayacaqdır.

4. Beləliklə, beynəlxalq əmək miqrasiyası ilə bağlı toplanmış məlumatlarla bağlı aşağıdakılar nəzərə alınmalıdır:

- işçi qüvvəsinin beynəlxalq və milli əmək bazarlarına daxil olmasını, çıxmasını, gəlirlərini, xərclərini və iqtisadiyyatda iştirak payını özündə ehtiva edən hərtərəfli statistik məlumatları əks etdirən hesabatların ictimaiyyətə təqdim edilməsi məqsədilə hazırlanması;
- beynəlxalq əmək miqrasiyası üzrə ilkin məlumatların kağızdan elektron formata köçürülməsinin sürətləndirilməsi işçilərin vaxtına

qənaət etməsini, həmçinin əl əməyinə olan tələbatın azaldılmasını, ilkin informasiyanın işlənməsini sürətləndirəcək.

5. Aparılan araşdırma nəticəsi göstərir ki, əmək resurslarının beynəlxalq mobilliyi iqtisadiyyata ciddi təsir edə bilər. Bu təsir iki istiqamətdə baş verə bilər. Birincisi ölkədən gedənlərin və ölkəyə gələnlərin ölkələrarası qarşılıqlı bilik, texnologiya mübadiləsini sürətləndirmələri, ikincisi qarşılıqlı pul baratları mübadiləsi yolu ilə iqtisadiyyata təsir edə bilər.

6. Azərbaycanda əmək resusrlarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin təhlili nəticəsində müəyyən edilmişdir ki, əmək qabiliyyətli yaşda olan emiqrasiya ilə ÜDM arasında müsbət əlaqə var.

Azərbaycanda əmək qabiliyyətli yaşda olan miqrasiya əmək məhsuldarlığına əhəmiyyətli təsir göstərir, əsasən də emmiqrasiya immiqrasiyadan daha güclü təsir göstərir.

Azərbaycanda miqrasiya göstəriciləri ilə iqtisadi inkişaf göstəriciləri arasında uzunmüddətli dövrdə tarazlıq vardır.

8. Azərbaycanın xarici təcrübələri və modellərindən istifadə etməklə, immiqrasiya və inteqrasiya sahəsində daha müasir və çevik siyasət formalaşdırmaq mümkündür. Bu, ölkənin demoqrafik və iqtisadi inkişafını dəstəkləyəcək və miqrasiya proseslərinin idarə olunma-sını daha səmərəli hala gətirəcəkdir.

**Tədqiqat nəticəsində aşağıdakı təkliflər irəli sürülür:**

Tədqiqat nəticəsində əcnəbilərin məsafədən işləməsini tənzimləmək üçün Azərbaycanın Əmək Məcəlləsinə kompleks dəyişikliklər təklif edirik. Təklif edilən əlavə düzəlişlər uzaqdan iş yerləri üçün əməyin mühafizəsi tələblərini, işəgötürənin uzaqdan iş təhlükəsizliyi üzrə öhdəliklərini və iş şəraitinin uzaqdan monitorinqini əhatə edir. Xüsusilə irəli sürülən təkliflərimiz iş icazəsi prosedurlarını sadələşdirməyə, elektron sənəd dövriyyəsi qaydalarını təyin etməyə yönəlir və sosial sığorta aspektlərinə toxunur.

Tədqiqatımızda yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsinə diqqət yetirilməklə “2022-2026-cı illər üçün Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf Strategiyası”nın mexanizmlərinin təkmilləşdirilməsinin zəruriliyi də irəli sürülür. Bunlara bal əsasında ixtisas qiymətləndirmə sisteminin tətbiqi, yüksək ixtisaslı işçilər üçün sürətləndirilmiş məşğulluq yollarının yaradılması,

prioritet iqtisadi sektorlar üçün prosedurların sadələşdirilməsi və mövsümi işçi proqramlarının hazırlanması daxildir.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir:**


1. Ziyali E.I.The impact of international mobility of labor resources on the economy.Наука технології інновації. № 1 (33)/2025.p.18-30
2. Hüseynova, E. "Azerbaijan's energy security policy and the problem of using labor resources" –Ponto-Caspian and the Caucasus Region: changes in the conditions of merging and isolation of ecisystems, phylogeny, geology, ecology and geography of life, article published- 27-28 november 2020, Baku, İSSN:2227-5118, p. 47-48.
3. Hüseynova, E. "İmpact of the Pandemic on İnternational Labor Mobility; Problems and Solutions", V İnternational Scientific and Practical Conference Scientific Community İnterdisciplinary Research, 26-28 August 2021(article-sertificat), Germany Hamburg.
4. Huseynova, E. Effect of international labor mobility on social-economic development of countries SOCAR Azərbaycan Neft Təsərrüfatı Jurnalı, may 2021, DOI:10.37474/0365-8554/2021-5-54-5, p.54-59.
5. Hüseynova, E. Əmək resurslarının beynəlxalq mobilliyinə elmi baxışların icmalı. Azərbaycanda İqtisadi İslahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri, 2020, İSSN 2413-7235, səh 27-34. https://theesri.com/uploads/files/Toplu_2020.pdf
6. Hüseynova, E. "Əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsinin təşkilati-metodoloji əsasları və əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi göstəriciləri", iyul-sentyabr 2020, UNEC İSSN 2306-8426, s. 71-90.

7. Hüseynova, E. “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri” 2021-ci il 06 may tarixində Ümumimilli Lider H.Əliyevin anadan olmasının 98-ci illiyinə həsr olunmuş mövzusunda BBU-da keçirilən beynəlxalq elmi-praktiki konfransın elmi əsərlər toplusu, s. 323-327.
8. Hüseynova, E. “SOCAR-da əməyin təşkili və normalaşdırılmasının beynəlxalq standartlara uyğunlaşdırılması” Azərbaycanda İqtisadi İslahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri // E.Hüseynova, V.Rzayeva. 2017, İSSN 2413-7235, səh 53-65.
9. Hüseynova, E. Azərbaycanın əmək resurslarının beynəlxalq hərə-kətinin iqtisadiyyata təsiri, Dayanıqlı inkişafın yeni keyfiyyət mərhə-ləsi, Beynəlxalq Elmi Konfrans, Bakı 2022-ci il, s. 200-211.
10. Hüseynova, E. Beynəlxalq miqrasiyanın ölkənin sosial-iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi. İpək yolu jurnalı, mart 2023, s. 78-94. https://au.edu.az/az/publications/ipek_yolu_ar-chive_1_2023
11. Hüseynova, E. Əmək resurslarının beynəlxalq mobilliyinin so-sial-iqtisadi inkişafa təsiri, Statistika xəbərləri jurnalı, 2021, İSSN 2413-6557. DOI: 10.338.70/2413-6557-2021-7-2-70-77, səh 70-81. https://etsim.az/upload/File/publication/08-2022/publication-33-file_az.pdf
12. Hüseynova, E. Əmək resurslarının beynəlxalq mobilliyinin statistik göstəricilər sistemi və onların formalaşma mənbələri, AUDİT jurnalı, may 2021,s.23-34. https://audit-jour-nal.az/files/articles/76.pdf

Dissertasiyanın müdafiəsi 17 oktyabr 2025-cü il tarixində saat 15:00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 6a

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.09.2025

Kağızın formatı: 60x84 1/16.

Həcmi 1 ç.v. (38069 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kom`mersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*